

# ISK

ARCHITECTURE &
PORTABLE
CONSTUCTION

www.iskarc.com
info@iskarc.com
+994 55 7711444

01 Haqqımızda
02 Missiyamız və Gələcəyə Baxış
03 Dəyərlərimiz
04 Hədəf Kütləmiz
05 Xidmətlərimiz
06 Aparıcı Heyət
07 Bizimlə Əlaqə



# HAQQIMIZDA

2020-ci ildən etibarən fəaliyyət göstərən şirkətimiz zamanın tələbi ilə keyfiyyətli Tiny House evlər tikmək vizyonu ilə Türkiyənin Sapanca şəhərində fəaliyyətə başlamışdır. İllər ərzində şirkətimiz həm Tiny House fərdi yaşayış evləri, həm də, Tiny House-lardan ibarət eko-resortlar (otellər) inşa etməklə müxtəlif layihələri tamamlayaraq tikinti sənayesində etibarlı bir ada çevrilmişdir. Sənətkarlığa, üsluba, təhlükəsizliyə və innovasiyaya sadiqliyimiz uğurumuza təkan verməklə müştərilərimiz və tərəfdaşlarımızla möhkəm və davamlı əlaqələr qurmağa imkan vermişdir.





## MÜASİR, DAŞINABİLƏN VƏ EKOLOJİ DOST OLAN TİKİNTİLƏRİMİZ İLƏ İNŞAAT SEKTORUNUN GƏLƏCƏYİNİ FORMALAŞDIRIRIQ

Missiyamız davamlı, sərfəli və innovativ daşınabilən evlər tikməklə müştərilərimizin ev sahibliyi haqqında düşüncələrində inqilab etməkdir. Üslub və yaradıcılığımızla minimalist həyat tərzinə ilham verən unikal yaşayış həlləri təqdim etməyi, müştərilərimizi həqiqətən vacib olan nüanslara – təcrübələrə, təbiətdə yaşam, sağlamlıq və şəxsi inkişafa fokuslamağa təşviq etməyi hədəfləyirik.

# DƏYƏRLƏRİMİZ

Dəyərlərimiz işlərimizin təməlidir. Həyata keçirdiyimiz hər bir layihədə dürüstlüyə və şəffaflığa sadiqik. Keyfiyyət, üslub və komfort inşa etdiyimiz Tiny House evlərdə əsas prioritetimizdir. Zamanın sınağına tab gətirən strukturları təqdim etmək üçün sənətkarlıq və materiallarda mükəmməllik üçün çalışırıq. Uğurumuzun təməlləri şirkətimizin komanda işi və əməkdaşlıqlarıdır.



# HƏDƏF KÜTLƏMİZ



QONAQPƏRVƏRLİK SƏNAYESİ



FƏRDİ MÜŞTƏRİLƏR

# QONAQPƏRVƏRLİK SƏNAYESİ

Qonaqpərvərlik sənayesində unikal yaşayış yerlərinə tələbat artmaqda davam edir. Tiny House evlərimiz məkanınızı maksimum dərəcədə artırmaq və ətraf mühitə təsirləri minimuma endirməklə yanaşı, qonaqlarınızın məmnuniyyətini artırmağa xidmət edir. İstər butik otel, istər eko-resort, istərsə də tiny house-resort sahibi olmağınızdan asılı olmayaraq, bizim fərdiləşdirilə bilən evlərimiz orijinallıq və təbiətlə əlaqə axtaran səyahətçiləri cəlb edən füsunkar, funksional yaşayış yeri kimi xidmət edəcəkdir. Bizimlə əməkdaşlıq etməklə siz brendinizin dəyərini yüksəldə və qonaqlarınızın yenidən qayıtmasını təmin edən yaddaqalan təcrübələr yarada bilərsiniz.





# FƏRDİ MÜŞTƏRİLƏR

Hər kəs öz dəyərlərini və həyat tərzini əks etdirən bir evə layiqdir. Daşınabilən Tiny House evlərimiz sadəlik və funksionallığı əhatə edən sərfəli, ekoloji cəhətdən təmiz yaşayış həlli axtaran müştərilərə xidmət göstərir. Fərdiləşdirilə bilən evlərimiz sizə uyğun rahatlıq və üslubun mükəmməl qarışığını təmin edir. Biz keyfiyyətli işə və eko materiallara üstünlük veririk. Hər bir Tiny House evin təkcə unikal ehtiyaclarınıza cavab verməsini deyil, həm də ekoloji materiallarla tikilməsini təmin edirik.

# XİDMƏTLƏRİMİZ

## 1. Qiymətləndirmə

Bizə müraciət edərək boş torpaq sahələrinizə torpaq sahəsinin yerləşməsinə özəl dizayn edilmiş Tiny House yerləşdirməklə torpağınızın dəyərinə dəyər qata bilərsiniz.

## 2. Memarlıq

Memar və dizayner komandamız daimi olaraq Tiny House trendlərini izləməklə müştərilərimizin istək və tələblərinə uyğun yaradıcı memarlıq həlləri üçün çalışmaqdadır.

## 3. Tikinti

Müştərilərimiz dizaynı təsdiqlədikdən sonra peşəkar ustalardan ibarət heyətimiz yüksək keyfiyyətli materiallardan Tiny House evinizin tikintisi üçün start verəcəkdir.

## 4. Çatdırılma

Fabrikamızda tikintisi başa çatmış Tiny House evlər sığortalı və zəmanətli şəkildə torpaq sahənizə çatdırılacaq və hazırlanmış insfrastruktura görə yerləşdiriləcəkdir.

## 5. Təhvil

Tiny House evinizin elektrik, su, əgər var isə qaz xəttləri bağlandıqdan sonra tam hazır şəkildə sizə təhvil veriləcəkdir.

# TƏSİSÇİMİZDƏN

“Şirkətimizin vizyonu sadəcə təkərlər üzərində Tiny House evlərin inşasından ziyadə, həm də, davamlılığı və komfortu prioritetləşdirən yenilikçi yaşayış həllərinin tətbiqini əhatə edir. Ərazinin ölçüsündən asılı olmayaraq dizaynlarımız müştərilərimizə rahatlıq və keyfiyyətdən ödün vermədən minimalist həyat tərzini təqdim etmək iqtidarındadır. İnşa etdiyimiz hər bir Tiny House sadəcə bir quruluş deyil - yaradıcılıq, üslub, səmərəlilik, komfort və s. kimi əsas dəyərlərimizi əks etdirən bir yaşayış ünvanıdır. Birlikdə biz təkcə inşa etmirik - daha keyfiyyətli həyat tərzinə doğru hərəkatı təşviq edirik”

**İbrahim İskəndərli**



# Bizimlə əlaqə

info@iskarc.com

+994 55 771 14 44

www.iskarc.com

Böyükşor 2062, AZ1029
Bakı, Azərbaycan

ISK ARCHITECTURE & PORTABLE CONSTUCTION

# TƏŞƏKKÜRLƏR!